**N.F.XANKİŞİYEV**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 60)

# A.C.M.SMİT YARADICILIĞININ POETİK XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *antoloq, incə ritorika,təsəvvürçü, metafizik dünyagörüşü,*
***Ключевые слова:*** *антолог, тонкая риторика, имажинист, метафизическое мировоззрение*
***Key words:*** *antologist, subtle rhetorics, imagist, metaphysical understanding*

Artur Cames Marshall Smith (8 noyabr 1902 - 21 noyabr 1980) Kanadalı şair və antoloq idi. O, Leon Edel, Leo Kennedi, A. M. Klein və F. R. Skottun daxil olduğu Monreal Qrupunun üzvü idi. Bu şairlər hələ Viktoria dövrü mədəniyyətində möhkəm kök salmış modernizmin görkəmli nümayəndələri idilər.Smit Monrealda anadan olub, lakin 1918-ci ildən 1920-ci ilə qədər İngiltərədə yaşayıb və burada o, müasir poeziyadan xəbərdar olub. Monreala qayıdan Smit 1921-ci ildə Mak Gill Universitetinə daxil oldu. 1924-cü ildə orada bakalavr pilləsində olarkən o, "MakGill Daily Literary Supplement" üçün yazılar yazıb və birgə redaktorluq edib.1925-ci ildə aspirant kimi o, F. R. Skottla birlikdə "Mak Gill Fortnightly Review" jurnalını qurdu. "The McGill Fortnightly" digər gənc yazıçıları, o cümlədən, A. M. Klein, Leo Kennedy və Leon Edeli özünə cəlb etdi. Scott və Smitin bu gənc yazarlar üzərində böyük təsiri olmuşdur.1931-ci ildə Edinburq Universitetində doktorluq dərəcəsi almışdır.1936-cı ildə Smit Miçiqan Dövlət Kollecində (indiki Miçiqan Dövlət Universiteti) professor oldu və 1972-ci ildə təqaüdə çıxana qədər orada dərs dedi. O, Kanada mövzularına yönəlmiş bir çox məşhur əsərləri ilə həm alim, həm də şeir müəllifi kimi tanındı. Hələ 1939-cu ildə Smit Kanada poeziyasının antologiyasının hazırlanmasına dəstək olmaq üçün müraciət etmişdi. 1943-cü ildə onun ilk antologiyası nəşr olundu: Kanada Poeziya Kitabı, orada fərqli bir Kanada səsinin olduğunu iddia etdi. Kitabı ədəbiyyatşünas Northrop Fray yüksək qiymətləndirdi və onun nəşrini Kanada ədəbiyyatında mühüm hadisə adlandırdı.Smit 1943-cü ildə ingilisdilli poeziya və ya dram üzrə General Qubernator Mükafatını ilk şeir toplusu olan (News of the Phoenix and Other Poems) "Feniks xəbərləri və digər şeirlər" görə qazandı. 1966-cı ildə Kanada Kral Cəmiyyəti onu "Lorne Pierce" medalı ilə təltif etdi. 1972-ci ildə Smit təqaüdə çıxanda Miçiqan Dövlət Universiteti "A.C.M. Smit Mükafatı" tərtib etdi və hər il bu mükafat bir Kanadalı şairin diqqətəlayiq toplusuna verilir.Smitin "Tənha diyar" şeirinə 1978-ci ildə Violet Archer tərəfindən musiqi bəstələnmişdir.(7)

A.C.Smit Kanada ədəbiyyatında ən görkəmli səxslərdən biridir.Onun şeirlərini oxuyub-oxumamağımızdan asılı olmayaraq biz Kanada poeziyasının təhlili və tənqidi zamanı şairin yaradıcılıq işi ilə mütləq rastlaşacağıq.Bu, ən azından onun Kanada mədəniyyətinin antoloqu olmasından qaynaqlanır.A.C.Smitin poema və oçerkləri hər şeydən əvvəl bizim Kanada ədəbiyyatı ilə ilk təmaslarımızın yaranmasında körpü rolunu oynayır və Kanadanın poeziya dünyası haqqında fikirlərin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. O,həmişə bədii yaradıcılıqda yüksək standartlar tərəfdarı olmuş,poetik və tənqidi yazılarında bu keyfiyyətlərin vacibliyini vurğulamış və özünün seirlərində də buna xüsusi diqqət yetirmişdir.Bu baxımdan Smitin tərtib etdiyi antologiyalar keyfiyyət baxımından daha qiymətli və daha cəlbedicidir.Bu antologiyaları tənqid etmək çox çətindir, çünki onlar hər seydən əvvəl oxucu zövqünün formalaşmasında mühüm rol oynayırlar.Bu topluların ən çox nəzərə çarpacaq cəhəti onların biçimsiz və fərdi hisslərin ifadəsindən ibarət şeir və esseler toplumu olmamasıdır.Bu antologiyalara yüksək qiymət verən Norsrop Fray yazırdı: "Bu toplumlardakı tonların harmoniyası Smitin özündən yox,mövzular arasındakı yaxınlıqdan və yazıçıların onlara münasibətdən

doğmuşdur. Smit təsvirdən daha çox qiymətləndirməyə üstünlük verir və bu qimətləndirmə, fərdi olsa belə,bizim ədəbiyyatımız üçün əsas meyar olduğu danılmazdır" (1). A.C.Smit özü kimi şairlərdən, məsələn, J.Makferson, P.K.Peyc və G.Jonsondan üstün olduğunu sübut etmişdir.Lakin, bu üstünlüyün antologiyaların tərtibatındakı keyfiyyətlərdən və yaxud antoloqların daxili məziyyətlərdən irəli gəldiyini demək çətindir.Onun standartları hamı tərəfindən qəbul olunsa da,olunmasa da, onun mükəmməlliyə sadiqliyi,bu mükəmməlliyi tərif etməsi və hər şeydən çox bu mükəmməlliyi şeirlərində təcəssüm etdirməsi, onun böyük mütəfəkkir və tənqidçi olduğunu sübut edir. "Zorən antoloqun etirafları" (2) adlı retrospektiv məqaləsində söylədiyi kimi siyahılar tutmaq və toplumlar tərtib etmək vərdişi uzun müddət onu tərk etməmişdir və bu xüsusiyyətlər Kanada yazarları və oxucularının şüurunu daima zənginləşməsinə və aydınlaşmasına xidmət etmişdir.Bu cür xüsusiyyətlər onun hələ Makqil və Edinburq universitetlərində təhsil aldığı illərdə formalaşmağa başlamışdır. Tələbəlik illərində o dövr üçün müasir sayılan şairlərin əsərlərinin dərindən mütaliyə etməsi onda bu xüsusiyyətlərin daha dərin iz saalmasına səbəb olmuşdur.Bəlkə də o,Kanadada yeganə adam idiki Ezra Paund və T.S.Eliotun əsərlərini oxumuş, onların dünya poeziya ənənələri haqqında düşüncələrindən bəhrələnmişdir.Bu təsir A.C.Smitin poeziya nəyə qadirdir fikrinə özünəməxsus bir cilalıq gətirmiş və onda kamillik standartlarının yaranmasına təkan vermişdir.Şair hələ gənc ikən anlamışdır ki,poeziya yalnız insanın fikir və hisslərinin birgə ifadəsi halında yarananır və bu zaman o əsil adını qazanmış olur.Bizim fikitimizcə intellekt hələ də,Smitin ümid etdiyi kimi,ədəbiyyatda özünün əhəmiyyətini bərqərar edə bilməmişdir.XIX əsr şairləri "hisslərin həmin hisslər olmadığını"qeyd etmələrinə baxmayaraq bu o demək deyil ki,Smit öz fikrində yanılmışdır. Siyahılar və toplumlar tərtibatçısı kimi tanınsa da A.C.Smit böyük işlər bacaran bir təşkilatçıdır. O,şeirlər toplusu yaradarkən buraya öz yazdığı şeirləri də əlavə edir və hansı şeirin hansı qrupda yer alacağı haqqında düşünür,onlar arasındakı ümumi xüsusiyyətləri müəyyənləşdirir,onların mövzu yaxud səslənmə oxşarliqlarını nəzərə alırdı.

Smit şeirləri bir-birindən necə fərqləndirirdi ritorik sualına biz onun "Kanada şeirlər kitabı" adlı toplusunun önsözündə cavab tapırıq. O, Kanada ənənələri ilə kosmopolit ölkələr arasında müqayisələr aparır. Yerli şairlərin çoxu sadə metodlardan,gündəlik danışıq dilindən istifadə edərək yaddaqalan obrazlar yaratmağa meyilli olduqları halda kosmopolit ölkələrdəki şairlər "fərdi və incə ritorika" (3) ilə maraqlanır və xüsusiyyətlərin oxuduqları metafizik poeziyadan yaxud T.S.Eliot kimi müasir yazarlardan əxz etdiklərini dilə gətirirlər. Bu müstəvidə A.C.Smitin kosmopolit ölkə yazarlarına üstünlük verməsi yerli yazarların qəzəbinə səbəb olur və onun üstün yazar olması ilə razılaşmırlar. Kanada tənqidi qiymətləndirici mühakimə yürütməkdən çəkinir, əksinə öz fikirlərini və münasibətlərini əks etdirən əsərlərin sayını artırırlar. Smitin keyfiyyəti mühakimə etmək istəyi kanadalıları əsəbiləşdirir, onlar onu nədəsə tənqid etməkdənsə, bir az küskün və ya istehza ilə dözməyi üstün tuturlar.A.C.Smit özünün "Kanada Şairləri:Konfederasiyadan sonra" əsərində yazırdı: " Ancaq Fray yerli və kosmopolit ölkə yazarları arasında görünən ziddiyyət məsələsini həll edə bilir və bu ziddiyyət yalnız yazıçı qrupları arasında deyil, hər bir yazıçıda var. Smitin ilk loyallığı keyfiyyətlə bağlı olduğundan o, öz zövqündən asılı olmayaraq bu qərarı ürəkdən qəbul edir". (4) Bununla belə, onun öz poeziyasında "kosmopolit" və klassik maraqların və metodların əsas olduğunu kəşf etməsi bizi təəccübləndirməz. Onun mövzuları yerli, fərdi, konfessional deyil, onun metodları özəl,adi və formaldır. Onun mövzuları özəl olmaqda daha çox universal olmağa meyllidir.

A.C.Smitin həmişə öz "doğma" torpağına böyük maraq göstərməsinə baxmayaraq onun şeirlərindəki bir çox insanların adları yalnız kanadalı oxuculara tanışdır,onlar milli olmaqdan daha çox beynəlmiləl olmağa meyllidirlər. Əgər biz Smiti milli və ya millətçi şair hesab etsək, bu, çox güman ki, onun "Tənha diyar" şeirinə görədir. Şeirin məşhurluluğu şair- Smit haqqında tamamilə yanlış fikirlər oyadır, çünki o, heç vaxt mənzərəyə geniş və ya hərtərəfli maraq göstərməmişdir. Şair həqiqətən də heç vaxt Corciya körfəzinin şeirdə təsvir edilən hissəsində olmamışdır. Şeir "millətçilik" xarakterində deyil,daha çox "təsəvvürçülük" xarakterindədir.

Yəni onu yaratmaq üçün təkan vətənpərvərlikdən daha çox ədəbi idi. Bu tip şeirlərin mənşəyi 1913-cü ildə İngiltərədə Ezra Paund və başqaları tərəfindən hazırlanmış poeziya növündən qaynaqlanır. Şeirin mənbəyi Corciya Körfəzi deyil, daha çox Smitin obrazlı ifadə etdiyi incə ruh və ya hisslər kompleksdir. Şeir bir halda təsvir etdiyi dünyanın zorakılığını özündə cəmləşdirən və dəyişdirən bir şair haqqındadır. Daha geniş müstəvidə isə o, yalnız təbii dünyada deyil, həyatın bütün sferalarında bizə qarşı hərəkət edən zorakı qüvvələri qəbul edən və onları aşan bir insan şəxsiyyəti haqqındadır.

A.C. Smitin şeirlərindəki ilkin məna səviyyələrini tanımağın bir yolu, onun öz şeirlərini topladığı qruplaşmaları nəzərdən keçirməkdir - məsələn, "Şeirlər, Yeni və Seçilmişlər" adlı toplumu götürək. Smit şeirləri qismən mövzularına görə altı qrupa ayırır və bu mövzular onun poeziyasının əsas mövzularıdır: (1) mifologiya, (2) təbiət, (3) sevgi və məhəbbət, (4) poeziya, (5) cəmiyyət və (6) ölüm. Şeirlərin bir qismi də öz metodları əsasında düzülür. Kateqoriyaların forma və məzmunun sürüşkən miqyasına əsaslanması Smit üçün mükəmməl səciyyəvi xüsusiyyətdir. O, başa düşür ki, forma və məzmun arasında kəskin fərq ola bilməz. Corc Vudkok Smitin kitabının bölmələrinə başlıq verəndə onları şeirlərin metod və ya üslublarına uyğunlaşdırır, məsələn, Yeats Fəlsəfi, Təsəvvür, Rokoko Pastoral, Satira və Parodiya, və Ölüm Metafizik Düşüncədə.(5) Altı mövzu, əlbəttə ki, bir-birini istisna etmir, nə də bir şeir bir mövzu ilə məhdudlaşmır.Burada müxtəlif səpkili şeirlər müxtəlif mövzuları əhatə edir. Gözlədiyimiz kimi, təbii dünya və sosial dünya ilə bağlı bölmələr ən qısa bölmələrdir. Smitin digər əsas mövzusu poeziyadır, çünki o, poeziya ilə maraqlanır və 20-ci əsrdə, xüsusən də Kanadada poeziya özünü dərk etməyə meyllidir. Tənqidçiləri arasında Smitin mövzu dairəsinin məhdud olması fikrini qismən Smitin özü irəli sürüb. O, 1957-ci ildə Desmond Peysiyə xalis və metafizik poeziyanın tərəfdarı olduğunu yazarkən özünü mütəxəssis kimi göstərməyə təşviq etmişdi (6). Bəzən tənqidçilər bu fikrindən yapışaraq onun maraqlarının cox hissəsinin Con Don və T.Eliot kimi metafizik şairlərdən rişələndiyini söyləyirlər. Milton Wilson qeyd edir ki, Smit, bəzən öz şeirlərini təhlil edərkən onlara dair mühakimələrində tənqidi jarqonlarından çox asanlıqla istifadə edir və onun ilkin loyallığının şeirə, yoxsa nəzəriyyəyə aid olması hərdən şübhə doğura bilir. (7) Nəzəriyyə ilə praktika arasında əlaqə mürəkkəbdir. O, şairdir, çünki poeziyanın nəzəriyyəçisidir və əksinə. Yəni, o, şerləri sırf bir nəzəriyyəyə uyğunlaşdırmaq üçün yazmır və yaxud şeirlərini əsaslandırmaq üçün nəzəriyyə qurmur. Çünki onun poeziya nəzəriyyəsi kənar təsirlər bucağından izah olunduğuna və ya tarixi zaman kəsiyinə yerləşdirildiyinə görə bizə məhdud və ya köhnə görünür. Smit bir şair üçün çox düşünə bilər. Bu, əlbəttə ki,onun düşünmək qabiliyyəti olmayan poeziyaya qarşı reaksiyasıdır. Yüksək zövqə malik olmaq üçün akademik olmaq üstünlük deyil. İnsan ağrı, cəsarət, intuisiya, vəhylər istəyir. Smit bizdə şeir yazmağın fizioloji bir funksiya olduğu fikrini yaratmır. Şeir yazmaq əlbəttə ki, asan deyil. Əksər şairlər bunu edir, lakin Smit bunun son dərəcə şüurlu şəkildə edir. O, "Xristian Həkimlərə" kitabında qeyd edir ki, seirdə hər şey intellektdən qaynaqlanmasa da müəyyən bir nöqtədə hər şey intellekt çətiri altına gəlməli olur.Odur ki,biz şeirlərə texniki cəhətdən baxmağı haqlı sayırıq. Bizdən bunu etmək, onun nə dediyini,necə söylədiyini araşdırmaq tələb olunur. Məsələn, artıq adı çəkilən məşhur "Tənha diyar" şeirini götürək. Məzmununa heyran qaldığımız üçün biz demək olar ki, heç vaxt bu şeirin metodunu nəzərdən keçirmirik. Biz şeiri oxuyarkən gördüyümüz mənzərələri,torpaqları, rəsmləri və ya yerlər gözümüz önündə canlandırırıq və ya onlar haqqında düşünürük. Şeirin yazmaq təcrübəsi ilə deyil, sənətlə yaranması faktı, poeziyanın "doğru" və ya "əsl" olmasını düşünən bəzilərini əsəbiləşdirə bilər. Şeirin vizual həcminə əhəmiyyət verməsək biz obrazın mənəvi əhəmiyyəti baxımından məzmuna üstünlük verməliyik. Texniki olaraq şeir necə işləyir? Maraqlıdır ki, o, rəsm əsərinin işləməyəcəyi şəkildə işləyir. Səs effektləri və hərəkətlilik yerli yelində işləyir. Smitin şeirinin texnikası ilə bağlı veriləcək ən yaxşı suallardan biri "Ritm nə qədər nizamlıdır? "Tənha diyar" şeirində biz vurğulu və vurğusuz hecaların kifayət qədər müntəzəm növbələşməsi ilə rastlaşırıq. Lakin vurğusuz olan bəzi sözlər və hecalar səs

və ya mənaya görə daha çox vurğu altına düşür və beləliklə vurğular bir araya gəldikdə reqyular söz axınına yeni enerji verilmiş olur. Müntəzəm ritm daha çox ənənəvi gözəlliyi təmsil edir, ikiqat vurğu isə yeni bir gözəlliyi, gücün gözəlliyini təqdim edir və ya həyata keçirir. Şeirin ritmi bütövlükdə birinci misradan yaranır. O, bir müddət uzanır və sonra ikiqat gərginliklərlə dayandırılır. Birinci sətirin ritmi sonuncu iki sətirdə bir vurğu əlavə edilməklə necə təkrarlandığı oxucunun diqqətini özünə çəkir. Bu yeni gözəllik enerjisi həm də şeirin ritmi ilə yaranır ki, bu da ilk növbədə bizə görünməyə bilər. Onlar şeirin üz qabığı altında enerji axınının bir hissəsi kimi işləyirlər. Onlar sətirlərdə olan gözəlliyi göstərmək üçün müntəzəm və ya proqnozlaşdırıla bilən deyil. Səs effekti şeirdəki qafiyələrlə məhdudlaşmır. Şeir həm də sözlərin ilk səsləri vasitəsi ilə təşkil edilir,məsələn "s" və başqa bu kimi samitlər: Sharp, sky, spume, spray, snap, stagger, stones, stoney, strand, smoky. Bu sözlərin hamısı "güc" sözünün mənasında olan çalarlıqları özlərində ehtiva edir və onların hamısı özlüyündə də güclüdürlər və hamısı ən sonundakı iki (“still strong”) sözə qoşulmağa doğru yönəmlidirlər.

Torpağın və yaradıcı ağlın enerjisi şeirin fellərində də ifadə olunur. Birinci misrada bütün fellərin aktiv olduğuna diqqət yetirin: uplift, snap, lean. İkinci misrada bu enerji pozulduqca, tonlar "səndələyərək aşağı düşdükdə" fellər passivləşir: are lost, curled, broken, üindbattered. Sonradan onlar “bərpa” olunur və şeirin sonunda yenidən aktivləşirlər. Son bəndi istisna etsək, görərik ki, “recover” sözü şeirin tam mərkəzindədir. Şeirin bütün elementləri bir şeyə - qırılmaya və ya bərpaya qarşı enerji axını təsvir edir və təcəssüm etdirir. Yəni, “güc gözəlliyi” ("beauty of strength") təbiətə aid olduğu qədər sənətə də aiddir. Təbiət, şeirdə qismən insan yaradıcılığı üçün bir obrazdır. Şeir özü-özünü əks etdirir, özü haqqında danışır, sənətkar və onun reallıqla münasibəti, onun enerjisi haqqında məlumat verir, xarici aləmdə nələr baş verdiyindən, dünyanın insan düşüncəsinə təsirindən və bu düşüncənin bu təsirlərə reaksiyasından bəhs edir. Şeirlərinin əksəriyyəti stanzaik və ya daha nizamlı sətir uzunluğuna əsaslanır. Lakin bu xüsusiyyət güclü sənətkar qayğıkeşliyi ilə əhatə olunub. Ümumi şəkildə desək şeirin formasının onun üçün fərqi yoxdur. Şeirin birinci hissəsində o, bir növ nizamlı model yaradır və sonra ona qarşı işləməyə başlayır. O, müntəzəm metrik axın yaradır və sonra onu dəyişir və ya tərk edir. Şeirin birinci hissəsinin səsini və ya tonunu son misraya və ya sətirə qədər müqayisə etməyə dəyər. Məsələn, "Kölgələr var" (Shadows There are) şeirinin sonuncu sətrindəki "sharp" sözünə daha çox güc verilir, çünki "transparent" sözünün ortasından sonra vurğu yoxdur. "İki quş" (The Two Birds) şeirinin son sətirində ritm,iki ikiqat vurğu istisna olmaqla ( "foul bird" və "black heart"), zəif və bayağı görünür. Parlaq bir nümunə kimi “Qoca Kral Kimi “ (Like an Old Pround King in a Parable) şeirini götürə bilərik.Bu şeirdə padşahın hekayəsindən sonra ritm birdən-birə özündə daha böyük çətinliklər ehtiva etməyə başlayır. Smitin ən gözəl şeirlərindən biri olan "Feniksin Xəbərləri" (News of the Phoenix) bu vasitədən çox təsirli şəkildə istifadə edir. Son sətirdəki "precautionary" sözü metrik cəhətdən çox uzundur və onu yenidən nəsrə itələyir və beləliklə,o,“xəbərlər”in verildiyi publisistik dilin bayağılığını ortaya qoymuş olur.Yəni, sözün ritmi şeirdə səs tonunun açarı rolunda çıxış edir. Smitin hər hansı bir şeirini oxuduğumuz zaman səs məsələsi şeirin texnikası ilə bağlı veriləcək ikinci vacib sualı doğurur: “Səs tonu özlüyündə nə deməkdir?,Sözlər haradan götürülüb?,Şeirdə başqa dillərdən götürülmə sözlər varmı? və s.və i. Smit hətta bir şair, antoloq və ya sözlərin tərtibçisi kimi qəbul edilə bilər. "Göylərdə olan musiqi nədir?" (What is That Music High in The Air) şeirinin özü poeziyada ton və ya dil səviyyələri məsələsini nəzərdən keçirən faydalı bir nümunədir. Burada başqa bir dövrün poeziyasından əxz edilmiş söz və ifadələrin səs tonu və ritm fonunda bizimlə danışa bilib-bilmədiyi soruşulur. Şeirin son misrası bütövlükdə bu şeirlərdəki dil diapazonunu özündə saxlayır. “Unlaurelled” şeiri poetik elegiya ənənəsindən bir nümunədir. “Mərsiyə" müasir üslubda ciddi və ləyaqətli yer tutmaqla yanaşı, həm də müasir dövrün öz ölüsünü mahnı ilə ağlamaqda aciz olduğunu açıb göstərir. Şeirin son sətiri şeirin kifayət qədər nizamlı metrajını itirir və özünün parçalanmas hesabına poeziyanın güclü emosional təsirini yaradır. Smitin şeirlərində kontekst və tonların diapazonu

təsir edicidir. O, mövzularını Kanadanın bu günündən, Amerika mifindən, Avropa poeziyasından və klassik mifdən olan nümunələrdən götürür. Ritorik diapazon da eyni dərəcədə genişdir. Smit bu diapazonun bir qismini parodiyalar yazmaqla, tərcümələr etməklə və digər yazıçılara olan marağı ilə əldə edir. Ona xas olan ən xarakterik forma ironik misralardır ki, onları Smit T.S.Eliotdan və Laforgue kimi fransız şairlərindən əxz etmişdir. Paunddan öyrəndiyi kimi o, bu təcürbələri ədəbi tənqidin bir forması sayır və özünün bir şair kimi tanınmasında güclü bir vasitə hesab edir.Smitin şeirlərində çox sayda yad ruh və səslər duyulmaqdadır.

Beləliklə, Smitin şeirin yazılma taktikası ilə razılaşmaq üçün biz mövzunu və ya mövzuların birləşməsini, konteksti və dildə ton və ya tonların qarışığını müəyyən edə bilərik. Bu sxematik metod bizə Smitin şeiriyyatı haqqında tam və qəti söz deməyə imkan verməsə də, onun sözləri necə söylədiyi və onun dediklərinin bizdə necə təəssürat doğurduğu haqqında kifayət qədər məlumat verə bilərik.

## Ədəbiyyat

1. Northrop Frye, “Canada and its poetry”, Toronto: Ryerson, 1967,p 87.
2. A.J. Smith, “The Confessions of a Compulsive Anthologist”, Toronto: McClelland and Stewart, 1977, p.106.
3. A.J. Smith, ”The Book of Canadian Poetry”,Toronto:Gage,1987,p.29.
4. A.J. Smith, ”The Canadian Poet: After Confederation”, Vancouver: Columbia Press,1973, p.162.
5. George Woodcock, ”Review of A.J. Smith’s Collected Poems”, Toronto: Ryerson, 1969, p. 124.
6. Desmond Pacey, Ten Canadian Poets, Toronto: Ryerson, 1958, p. 203.
7. Vikipedic material

**Н.Ф.Ханкишиев**

**Поэтические характеристики творчества А.Дж.М.Смита**

***Резюме***

Статья посвящена творчеству канадского поэта А.Дж.М.Смита. В ней автор рассказывает о поэтическом осознании поэта реального и духовного мира и его поэтическом решении социальных проблем в своей поэтике.

**N.F.Khankishiyev**

**The poetic characteristics of A.J.M.Smith’s creative activity**

***Summary***

This article is about Canadian poet A.J.M.Smith’s creative manners.The author talks about the poetical comprehension of real and spiritual world by the poet and his poetical solution of social problems in his poetry.

*Rəyçi: dos. N.Nuriyeva*

*Redaksiyaya daxil olub: 02.06.2022*